

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
x.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

"Aspoliqraf LTD" nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Üz qabığındakı foto:
Nilay və Ramel Mazanovlar



# Göy Qurşağı

№ 04 (88) / 2025

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL

# Qar yağır meşəyə

**Tofiq Mahmud**

Meşə çılpaq,
Tapmazsan
Dərman üçün bir yarpaq.
Hər tərəf budaq-budaq...
Elə bu vaxt
Yağır qar!
Elə bil çiçəklənir
Sevincindən ağaclar.
Yollar, diklər, yamaclar!
Bu meşəyə qar yağır,
Yağır qar ağır-ağır!
Meşə açır qapqara
Sinəsini bu qara!
Açır qucaqlamağa
Həm budaq-qollarını,
Özündə saxlamağa,
Açır həm yollarını!

Qar yağır... bir gün, üç gün,
Meşəni tutur bütün.
Yavaş-yavaş ağarır,
Təkcə ağaclar deyil,
Təkcə yamaclar deyil,
Adi bir daş ağarır.
Bayaq saralan meşə,
Bayaq qaralan meşə
İşıq kimi sayrışır
Min-min ağ gül içində.
Meşə özü görünür
Ağappaq tül içində!
Bu meşəyə qar yağır,
Qar yağır, ağır-ağır...
Meşə açıb köksünü
Bu qarla nəfəs alır.
Yağır yenə neçə gün
Tutur hər yeri bütün.
Meşə qalın, sıx, böyük,
Xoşdur ona qarlı yük!
Qar yağır bu meşəyə,
Dönür parlaq şüşəyə...
Ağaclar yumaq-yumaq,
İndi meşə ağappaq!

# QAR

**Zahid Xəlil**

Qar yağıb çiçək-çiçək,
Qar yağıb lopa-lopa.
Qar geyinmiş təpələr
Bənzəyir bir ağ topa.
Atıb yaşıl kürkünü,
Ağ bürünüb ağaclar.
Baxırsan elə bil ki,
Qar gətirib ağaclar.
Hələ Muğana, Milə
Nə qədər qar düşübdür.
Deyirsən, bu düzlərə,
Ağ buludlar düşübdür.
Görün necə parlayır
Qar dümağ ipək kimi.
Evlər qarın altından
Çıxıb göbələk kimi.






# Reyhan Yusifqızı - 60

## "Qələmə aldığım bütün hekayələr həyatda gördüyüm, tanıdığım insanlarla bağlıdır"



**Sevimli yazarlarımız**

*Salam, balaca dostlarım!*

*Mən İncəhörüməm. Sizin sadiq, sevimli dostunuz. Bu gün sizə çox sevdiyim bir yazıçıdan danışmaq istəyirəm.*

*Reyhan Yusifqızı uşaqlar üçün maraqlı və öyrədici kitablar yazır. Onun kitablarını balacalar da oxuya bilər, bir az böyüyən uşaqlar da. "Hamıdan qəşəng", "Xoşbəxt arı", "Ulduz pərisi", "Məstan və Babu" kimi şəkilli kitabları var. Məncə, siz də bu kitabları oxusanız, çox bəyənərsiniz.*

*Onun hekayələrində dostluq, sevgi və mərhəmət var. "Ad günü" hekayəsində uşaqlara deyir ki, başqasına gülmək yaxşı deyil, dost isə dar gündə kömək edən insandır. "Mister Bebbic" hekayəsində isə bizə öyrədir ki, kompüterdən çox istifadə etmək olmaz, kitab oxumaq çox vacibdir.*

*Bu yazıçı yalnız nağıl yox, həm də öyrədən kitablar yazır. "Riyaziyyat əyləncəli ola bilərmiş" kitabında riyaziyyatı oyun kimi öyrədir. "Kompüterin qəribə tarixi" kitabında isə kompüterin necə yarandığını sadə və maraqlı dillə izah edir.*

*Reyhan Yusifqızı deyir ki, uşaqlar kitab oxuya-oxuya həyatı tanıyırlar. Ona görə də o bizim üçün maraqlı, faydalı və gözəl kitablar yazır. Onun kitabları bizi həm güldürür, həm də düşündürür və ən əsası xəyal qurmağı öyrədir. Yazıçı elmi-fantastik hekayələr də yazır və bu hekayələrdə gələcəyin sirli dünyasını uşaqlara sevdirir.*

*Reyhan Yusifqızı kitablarını oxuyan uşaqlar yeni kəşflər, ağıllı qəhrəmanlar və maraqlı macəralarla tanış olurlar. Bu kitablar bizə elm və texnologiyanın gələcəkdə daha da inkişaf edəcəyini göstərir. Onun yazı üslubu çox özəldir. Oxuduqca xəyalımız genişlənir, düşünməyə başlayırıq. Elə buna görə də Reyhan Yusifqızı Azərbaycan uşaq ədəbiyyatında yadda qalan, sevilən bir yazıçıdır deyə bilərəm. Dostlar, o həm də kitabxananın və kitabsevərlərin də dostudur. Tez-tez tədbirlərə rəng qatan öz dəsti-xətti ilə zənginlik gətirən Reyhan Yusifqızı bütün kitablarını ilk olaraq mənə hədiyyə edir. Mən bu kitabları kitabxananın ən gözəl rəflərində saxlayıram. Necə?.. Siz də oxumaq istədiniz?.. Lap yaxşı, elə isə F.Köçərli adına Kitabxanamıza gəlin, istədiyiniz kitabla tanış olun.*

*Mən İncəhörüm, sizə deyirəm: kitab oxuyun, çünki kitablar ən yaxşı dostdur!*





## *Reyhan Yusifqızı:*

# MƏN NAĞILLARDA DEYİL, REAL HƏYATDA YAŞAMAQ İSTƏYİRƏM...

Sevimli dostlar! Ötən günlərdə yubileyini qeyd etdiyimiz Reyhan Yusifqızı "İncəhörüm"ün qonağı oldu. Sizdən gələn məktubları oxuyanda o, dərin sevinc hissi yaşadı və hər bir sualınızı böyük məmnuniyyətlə cavablandırdı.

Bu söhbətdə Reyhan Yusifqızı uşaqlarla ürəkdən danışır, onları nağılların sehrli dünyasına aparan qapıları açır. O, cəsur uşaqlardan, danışan heyvanlardan, rəngarəng xəyallardan danışır, oxumağın, sual verməyin və düşünməyin gücünü göstərir. Hər cavabı balaca oxuculara ilham verir, onları həm düşündürür, həm də gülümsədir.

"Göy qurşağı" jurnalının səhifələrində bu söhbət nağıl və reallığı birləşdirən sehrli bir dünya yaradır – gəlin birlikdə o sehrli dünyaya addım ataq!

***– Reyhan xanım, əgər qəhrəmanlarınızdan biri bir gün jurnalı oxuyan uşaqlara məktub yazsaydı, sizcə, onlara ilk nə deyərdi?***

– Əziz uşaqlar! "Göy qurşağı" jurnalını oxuyun. Bu jurnalda o qədər maraqlı məlumatlat var ki! Biz – nağıl qəhrəmanları yalnız jurnalların, kitabların səhifələrində mövcuduq. Rəngarəng "Göy qurşağı" jurnalı da oxucularla nağıl qəhrəmanları arasında bir vasitəçidir. Gəlin tanış olaq:

***– Nağıllarınızda ən çox hansı "sehrli" xüsusiyyəti sevirsiniz: danışan heyvanları, cəsur uşaqları, yoxsa gözəgörünməz dostları?***

– Ən çox cəsur uşaqları sevirəm. Məqsədinə çatmaq üçün dərələrdən, təpələrdən aşan cəsur uşaqları. Əsərlərimin çoxunu onlara həsr etmişəm. Elə danışan heyvanlar da, gözəgörünməz dostlar da bu cəsur uşaqları oxucuya tanıtmaq, onların daxili aləmini açmaq üçündür.




***– Sizcə, uşaqlar böyüklərə nələri öyrədə bilərlər?***

– Uşaqlar böyüklərə çox şeylər öyrədirlər. Həyatın yüksək ritmində, işin-gücün arasında onların unutduğu, uşaqlıqda qoyduqları xatirələri yadlarına salırlar. Uşağın bir məsum təbəssümü, səmimi sözü, sadəlövh baxışı böyüklərin qərarlarına təsir edə bilir. Onları daha düzgün, daha ədalətli edir.

***– Bir gün kitablarınızdan biri canlanıb filmə çevrilsəydi, baş rolu hansı qəhrəman oynayardı?***

– Yaşıl gözlü qız – Lemi! Mən bu obrazı yaradanda onun nə vaxtsa bir film qəhrəmanı olacağına inanırdım. Hətta xəyalımda o filmi düşünərək Lemi haqda üç kitab – trilogiya yazmışam. Şadam ki, oxucular da yadplanetli qızı – Lemini sevdilər. Bir gün Lemi və dostlarını ekranlarda görmək ən böyük arzumdur.

***– Yazarkən ən çox nə sizi ilhamlandırır: uşaqların sualları, xəyalları, yoxsa susaraq düşündükləri anlar?***

– Uşaqların suallarını həmişə diqqətlə dinləyirəm. Çünki bu suallarda onların xəyalları, arzu və istəkləri, həmçinin susaraq düşündükləri əks olunur. Hər dəfə oxucularla görüşə gedəndə həyəcanlanıram: görəsən, bu dəfə hansı gözlənilməz suallar olacaq? Suallar varsa, deməli, oxucunu öz dünyama gətirə bilmişəm. Əlbəttə, bu məni ilhamlandırır.

***–Uşaqlara görə xoşbəxtliyin rəngi hansıdır və bu rəng hekayələrinizdə varmı?***

– Xoşbəxtliyin rəngi? Maraqlı sualdır. Fikir vermişəm ki, qızlar, əsasən, çəhrayı rəngi, oğlanlar isə göy rəngi daha çox sevirlər. Məncə, rəng seçimi adama görə dəyişir. Mən ağ rəngi daha çox sevirəm. Hekayələrim isə rəngarəngdir!

***– Bir nağıl qəhrəmanı olsaydınız, hansı nağılda yaşamaq istərdiniz?***

– Nağıllar xəyallarımızın məhsuludur. Xəyal qurmağı bacarmaq gözəldir. Xəyallarımız üçün sərhəd, manеə yoxdur. Onlar bizi ilhamlandırır, xoşbəxt edir. Amma tək xəyallarla yaşamaq olmaz. Reallığı heç zaman itirməməlisən. Mən nağıllarda deyil, real həyatda yaşamaq istəyirəm. Həyatı nağıla döndərmək istəyirəm.

***– Özünüzə necə oxucular arzu edirsiniz?***

– Oxucularımla çoxlu görüşlərim olub. O qədər fərqli, o qədər sevimlidirlər ki. Onların sevgi dolu baxışları, xoş təbəssümü mənə dünyanı bəxş edir. O ki qaldı sizin sualınıza... düşünən oxucu deyərdim. Arzu edirəm ki, oxucularım mütaliəli, dünyagörüşlü, tələbkar və düşünən olsun. Sağlam və xoşbəxt böyüsünlər.

***Kitabxananın əməkdaşları və sevimli oxucularımız adından Reyhan xanım Yusifqızını ürəkdən təbrik edir, kitabxanamıza hədiyyə etdiyi maraqlı və sehrli dünyalara açılan kitablar üçün ona təşəkkürümüzü bildiririk!***

Fərhada atası xizək alıb gətirdi. Xizək, nə xizək! Arxasında söykənəcəyi var idi. Sürüşkən qanadları adamın üzünə gülürdü.

– Xizəklə sürüşəndə yoldaşlarınla bir yerdə sürüş, yaxşımı? – deyə atası bərk-bərk tapşırdı.

Fərhad dinmədi. Səhərisi gün nahar eləyər-eləməz xizəyini arxasınca ipindən çəkərək küçəyə apardı. Səmadan “kəpənək” kimi qar yağır, uşaqlar səs-küy salıb oynayar, kimi buz üstündə sürüşür, kimi “şaxta baba” düzəldirdi...

Onlar Fərhadı görən kimi ətrafına toplaşdılar:

– Vay, Fərhadın xizəyinə baxın! – deyə Bahadır qışqırdı.

– Buna bax, söykənəcəyi də var! – Dildora xizəyin söykənəcəyinə əl gəzdirdi.

– Necə də parıldayır! – deyə Şövkət heyran qaldı.

– Yoldan çıx, altında qalarsan! – deyən Fərhad yedəkdən bərk-bərk tutaraq Şövkəti itələyib yanından keçdi və küçənin o üzündən təpəliyə çıxmağa başladı.

– Məni də götür, Fərhad! – deyə Dildora onun dalınca düşdü.

– Yox, sınar! – Fərhad xizəyinə qıymadı.

Təpəliyin üstünə çıxıb xizəyə oturdu. Sonra ayağı ilə bir təkan vermişdi ki, xizək aşağıya doğru getdikcə şiddətlə sürüşməyə başladı. Qar zərrəcikləri Fərhadın üz-gözünə çırpıldı. Xizək quş kimi qanad açıb uçurdu. Qulağının dibində külək uğuldasa da, özü üşümüşdü. Bu ona ləzzət verirdi.

Xizək aşağı düşüb dayandı. Bahadır qaça-qaça Fərhadın yanına gəldi:

– Gəl növbə ilə sürüşək, Fərhad, nə olar?! Bir dəfə sən çəkərsən, bir dəfə mən, – deyə o yalvardı.

– Yox, ipi qırılar... – Fərhad qaşqabağını salladı.

– Paxılın biri paxıl... – deyə Bahadır oradan uzaqlaşdı və sürüşməkdə olan başqa uşaqların yanına getdi.

Fərhad xizəyini çəkib yenə təpəliyin üstünə çıxdı. Sonra aşağıya doğru sürüşdü. Beş-altı dəfə belə sürüşəndən sonra artıq yoruldu. Xizəkdə üzüaşağı sürüşmək maraqlı idi, amma xizəyi çəkib yuxarı çıxarmaq maraqlı deyildi. Hamar yolda, düz yerdə sürüşmək istəsə də, onun üçün xizəyini çəkən kimsə yox idi.

Fərhad xizəyini çəkib uşaqların yanına gəldi.



ÖTKÜR HAŞIMOV

# Xizək

ÖZBƏK NAĞILI




*Rəssam:*
*Xədicə Ramazan, 10 yaş*
*“Təsviri sənət və dizayn” dərnəyinin üzvü*






# Hədiyyə

**AYGÜN BÜNYADZADƏ**

Bu əhvalat Yeni il ərəfəsində baş vermişdi. Həmin gün hava çox soyuq idi.

Quşbaşı qar yağır, külək bu qarı sovurub hara isə aparmağa çalışır, bu tərəfdən də şaxta ağına-bozuna baxmadan, haranı gəldi, dondururdu. Həmin gün sevimli küçüklər – Toplan, Fındıq və Xallı demək olar ki, bütün günü ancaq yatmışdılar.

– Bu necə havadır? – yuxudan oyanan Xallı deyinməyə başladı. – Elə soyuqdur ki, həyətə də çıxmaq olmur.

– Gör bir necə qar yağır! – Fındıq heyrətlə həyətə baxdı. – Hər tərəf ağappaqdır.

– Uşaqlar, bir baxın, elə bil bütün həyətə süd dağıdıblar, ağaclar da südün içinə düşmüş sümüklərdir! – Toplan iştahayla dil-dodağını yaladı.

– Özləri də gör necə böyük sümüklərdir! – Xallı könülsüz pəncərənin kandarından aşağı tullandı. – Bu Elmangil də səhərdən evdən çıxıblar. Görəsən, niyə belə gec gəldilər? Acmışam axı!

– Gəlirlər, gəlirlər! – əllərində də böyük bir ağac var! – Fındıq necə sevinclə hürdüsə, Xallı yenidən cəld geriyə – pəncərəyə, qardaşlarının yanına tullandı.

– Görəsən, o ağacı neyləyəcəklər?

Küçüklər qapıya tərəf qaçdılar.

– Darıxmısınız? – evə daxil olan Elman onların üçünün də başını sığalladı, sonra gətirdikləri ağacı göstərdi. – Heç bilirsiniz, bu nədir?

Küçüklər ağacın ətrafında atılıb-düşərək hürməyə başladılar. Bu, onların dilində “bilmirik” demək idi.

– Yaxşı, gedək sizin yeməyinizi verim. Yəqin, möhkəm acımısınız.

Bir qədər sonra qarınları tox, kefləri kök küçüklər xoşbəxt halda yenidən ümumi otağa, Elmanın yanına qayıtdılar. Burada isə hamı bayaqkı ağacı bəzəməklə məşğul idi. Qaçaraq otağa daxil olan Toplan, Fındıq və Xallı təəccübdən bir anlıq yerlərində donub qaldılar.

– Xallı, sən hamımızdan ağıllısan. Bilmirsən, bu ağacı niyə evə gətirib bəzəyirlər?

– Yox, mən də bilmirəm. Ancaq indi öyrənərik! – Əvvəlcə Elmanın yanına qaçan Xallı onun şalvarının balağını dişləri ilə tutub var gücü ilə dartışdırdı, sonra gah bəzəkli ağaca, gah da qardaşlarının yanına qaçıb hürməyə başladı.

– Hə, deyəsən, bu ağac sizi yaman çaşdırıb, – Elman onların üçünü də qucağına götürüb bəzəkli ağacın yanına gətirdi. – Baxın, bu, yolka ağacıdır. Sabah Yeni ildir. Hər dəfə Yeni il bayramında hamı yolka ağacı bəzəyir, bir-birinə hədiyyə verib təbrik edir. Ən böyük hədiyyəni isə Şaxta baba gətirir. Bu günlük bəsdir, yatın! Sabah bayramdır, haydı, evciyinizə!

Toplan, Fındıq və Xallı qaçaraq otağı tərk etdilər. Onların arxasınca baxan Elman hiyləgərcəsinə gülümsündü.

Evciyə çatan küçüklər, nə üçünsə, qəmli idilər.

– Kaş ki, bizim də bəzəkli yolkamız olaydı, Fındıq!

– Hə, pis olmazdı, ay Toplan!.. Səhər yuxudan oyananda görəydik ki, altında çoxlu hədiyyə var. Axı sabah Yeni il bayramıdır. Hamı kimi biz də hədiyyə istəyirik! – Fındığın gözləri dolmuşdu.

– Gəlin xəyala dalaq. Onda, heç olmasa, arzu etdiklərimizi yuxuda görərik! – Xallının bu təklifi hamının xoşuna gəldi. Cəmi bir neçə dəqiqədən sonra küçüklərin üçü də mışıl-mışıl yatmışdılar.

Səhər yuxudan oyanan Xallı heyrətdən donub qaldı: kimsə onların evciyini zərli kağızlarla bəzəmişdi. Evciyin qarşısında isə eynən qonaq otağındakı kimi, lakin xeyli kiçik, elə evciyin özü boyda bir yolka ağacı bəzədilmiş, ağacın budaqlarından balaca-balaca ləzzətli və müxtəlif formalı sümüklər asılmışdı. Ağacın altında isə yekə və təptəzə üç qab dünyanın ən ləzzətli küçük yeməyi ilə dopdolu idi. Xallı geri boylandı – yuxudan oyanan Toplanla Fındıq da heyrətlə bu gözəlliyə baxırdılar.

– Uşaqlar, bizi də təbrik ediblər!

– Bu, Elmanın işi olacaq! İndi bizim də öz bəzəkli yolkamız var!

Hələ bu yeməkləri demirsiniz?

Kefləri kök küçüklər sevincdən özlərini lap itirmişdilər. Az keçməmiş yeməklə dolu qablar bomboş boşaldılar.

– Uşaqlar, necə bilirsiniz, bəlkə, biz də Elmanın bayramını təbrik edək? – Xallının bu qəfil təklifi Toplanla Şoplanı bir anlıq çaşbaş saldı.

– Düz deyirsən, Xallı! – Fındıq fikrə getdi. – Bəs biz nə verək ona?

Bir anlıq sükut yarandı.

Mən tapdım! – Toplan qardaşlarına müraciət etdi. – Yadınızdadır, biz dünən axşam evciyimizin küncündə, bir də dünənki kimi ac qalmayaq deyə, dar gün üçün yekə bir sümük gizlətmişdik. Gəlin onu Elmana hədiyyə edək!

– Əla fikirləşmisən! İri, yağlı, içi iliklə dolu ləzzətli yekə sümük!

Tələsin! Nə qədər ki Elman yatıb, hədiyyəsini aparaq. Qoy yuxudan oyananda, görüb sevinsin.

Yuxudan oyanan Elmanı sürpriz gözləyirdi: Toplan, Fındıq və Xallı qarşılarında yekə bir sümük, əyləşib sanki onun oyanmasını gözləyirdilər. Oğlanın yuxudan oyandığını görən küçüklərin üçü də komanda verilmiş kimi, sümüyü dişləri ilə bərk-bərk tutub – sümük elə böyük idi ki, üçünün ağzına zorla yerləşirdi – bir az da qabağa gələrək Elmanın yanında yerə qoydular. Yalnız bundan sonra onlar şən-şən atılıb-düşərək, hürüşdülər. Küçük dilində bu,“ Yeni il bayramın mübarək! Sən bizim sevimli Elmanımızsan!” demək idi. Deyəsən, Elman da bunu başa düşmüşdü, çünki hər üçünü qucağına götürüb, öpərək, bağrına basdı: “ Çox sağ olun, uşaqlar! Bu hədiyyə mənim üçün həyatım boyu aldığım ən qiymətli hədiyyələrdən biridir. İndi isə icazənizlə, gedim. Bir azdan sizi də özümlə Yeni il şənliyinə aparacağam. Orada Şaxta baba bütün balacalara hədiyyə verəcək”.

Şaxta baba və hədiyyə adını eşidən Toplan, Fındıq və Xallı elə sevindilər ki, Elmanı yubatmamaq üçün cəld onun qucağından yerə atıldılar. Hər şey əla idi, həyatlarının ilk yeni ili heç də pis başlamamışdı.





# Qar üşüyəcək...

Sizə kimdən deyim, kimdən danışım? Bapbalaca, şirin dili ilə hamının qəlbini fəth edən Mətindən danışım. Mətin hələ çox balacadır, məktəbə də getmir. Yaşadığı evdə də, məhəllədə də hamıdan kiçik olduğu üçün hər kəs onu çox sevir. Onun saf baxışları, bəzən böyüklərə gülməli gələn, amma çox səmimi hərəkətləri Mətini hamının sevimlisinə çevirmişdi. O, günbəgün böyüyür, dünyanı öz uşaq düşüncəsi ilə tanıyırdı.

Bir qış səhəri idi...

Hər tərəf ağ örpəyə bürünmüşdü. Qar səssiz-səssiz, ara vermədən yağırdı. Həyətdə uşaqların sevinci yerə-göyə sığmırdı. Kimi qartopu oynayır, kimi də böyük bir Şaxtababa düzəldirdi. Körpə uşaqları isə valideynləri qucaqlarında gəzdirirdi.

Mətin həyətdəki səs-küyə oyanıb pəncərədən boylananda gözlərinə inanmadı. Hər yer ağappaq idi! Qar yağırdı! Sevinə-sevinə yeməyini yeyib həyətə qaçdı. Dostları ilə doyunca qartopu oynadı, birlikdə böyük bir Şaxta baba düzəltdilər. Gülüş, sevinc səsləri həyəti bürümüşdü.

Amma bir az sonra Mətin üşüdüyünü hiss etdi. Əlləri buz kimi olmuşdu. Ağlaya-ağlaya evə qaçdı. O qədər üşümüşdü ki, tir-tir əsirdi. Evə girən kimi sobanın yanında oturub isinməyə başladı.

Axşam düşürdü. Qar damların üstündə, ağacların budaqlarında, yerdə elə gözəl parıldayırdı ki, sanki hər yer ağ xalı ilə örtülmüşdü.

Axşam yeməyindən sonra Mətin yatmağa hazırlaşırdı. Amma valideynləri onun qaşlarını çatdığını, dərin-dərin düşündüyünü gördülər. Hamı maraqla soruşdu:

– Nə olub, ay balamız?

Mətin kövrələ-kövrələ dedi:

– Çöldə çox soyuqdur... Şaxta baba üşüyəcək. Gəlin onu evə gətirək, sobanın yanında qızınsın. Mənim kimi... Yoxsa qar üşüyəcək, Şaxta babanı xəstələndirəcək...

Əvvəl hamı güldü. Sonra isə Mətinə başa salmağa çalışdılar:

– Ay balam, qarı evə gətirmək olmaz. Qar sobanın yanında əriyər. Şaxta baba canlı deyil, o üşümür.

Amma nə qədər izah etsələr də, uşaq başa düşmədi.

O gecə Mətin uzun-uzadı düşündü. Şaxta babanı sobanın yanına necə gətirə biləcəyini fikirləşə-fikirləşə yuxuya getdi və şirin-şirin yatdı.

Səhər açıldı...

Gözəl bir qış səhəri idi. Günəş çıxmışdı. Qar yavaş-yavaş əriyirdi. Mətinin Şaxta babası da artıq yox idi...

O, yuxudan duran kimi pəncərəyə qaçdı. Şaxta babanı görməyə... Amma onu görə bilmədi. Şaxta baba suya dönmüşdü.

Balaca Mətin var gücü ilə ağlamağa başladı:

– Şaxta babama soyuq oldu... Xəstələndi... Evə gətirsəydim, sobanın yanında qoysaydım, əriməzdi...

Nə valideynləri, nə də dostları onu sakitləşdirə bildilər. Mətin hələ də uşaq dünyası ilə düşünür, Şaxta babasına acıyırdı.

Bizim balaca Mətin haqqındakı nağılımız da burada bitdi.

***Əziz balalar, göydən üç alma düşdü,***
***Birini Mətinə verdik – tez böyüsün,***
***Birini sizə verdik – öyrənəsiniz,***
***Birini də Şaxta babaya – “Göy Qurşağı” ndan xatirə kimi.***

**MƏRYƏM ƏLİYEVA**
*Kürdəmir Rayon MKS-nin metodika-biblioqrafiya şöbəsinin baş biblioqrafı*

# Barnaby tames his shadow




*Barnaby was a small chick with a very big problem. His shadows were mismatched!*

*Most chicks have shadows that do exactly what they do. If a chick sneezes, the shadow sneezes. If a chick eats a blueberry, the shadow eats a shadowberry. But Barnaby's shadow was eccentric.*

*When Barnaby walked slowly, his shadow did a tap dance. When Barnaby sat down to nap, his shadow stood up and practiced karate.*

*One Tuesday, Barnaby decided he had enough of his shadow's silliness. He went to the "Secret Shop" at the edge of the forest. The shop was run by a squirrel named Pip who wore three pairs of glasses at once when he needed to read.*

*"I need something to make my shadow sit still!" Barnaby sighed.*





**AYSHA TAPDIGZADE**

**Idrak lyceum, The International Baccalaureate Diploma Programme I student, 11 grade**

*The world, to me, is an intricate map of structures and patterns. Writing is simply how I trace the lines. It started in middle school classrooms, where a strange thrill was found in the precision of an argumentative essay. Over time, that love for structure evolved into a passion for poetry. This love for writing is what motivated me to start my Newspaper Club at school years ago. Today, I am willing to try it all. Whether I'm defending a position or humming words to the strum of a string, it's all words I'm trying to use to convey a point important to me.*

*But patterns aren't exclusive to the page. I see them just as clearly in mathematics, which is the ultimate language of structure. To me, there is no fundamental difference between solving a complex derivative, switching between "numbered" chords on my guitar, and identifying the rhythmic "math" within a poem. In all, I find a universal truth that only patterns can reveal.*

*Hobbies: Writing, reading, listening to music, & playing the guitar .*

*Pip jumped off his stool and across many ladders, before handing him a pair of neon green pyjamas.*

*"Why these?" Barnaby asked, scratching his fuzzy ears.*

*"Because," Pip whispered, "your shadow is just bored. It wants to be fancy! If you wear something exciting, your shadow will be too busy looking at itself to run away."*

*Barnaby put on the pajamas. They were bright green with yellow dots that glowed in the dark. He looked in the mirror. He looked ridiculous. He looked wonderful. He could get used to wearing something this ridiculous.*

*He looked down at his shadow.*

*The shadow stopped karate chopping the air. It looked at its own polka dot covered arms. It did a little twirl. Then, for the first time ever, the shadow sat down right at Barnaby's feet and stayed there, admiring its new, glowing spots.*

*Barnaby realized that Pip was right, his shadow just needed a distraction because it just had a lot of "extra wiggles" that needed a place to go. From that day on, Barnaby and his shadow were perfectly in sync, as long as Barnaby wore his favorite, silly pajamas.*

# Сказка про снежинку

Высоко-высоко в облаках жила одна снежинка. Она была самой маленькой из всех снежинок в своем облачном королевстве. Как-то зимним утром, когда все её друзья спустились с облаков на землю, маленькая снежинка осталась одна. Её не пустили и сказали, что маленькой снежинке нужно подрасти.

Маленькая снежинка мечтала о том, как она полетит, ветер будет её кружить над верхушками деревьев, она мягко приземлится на сугроб и будет переливаться разными цветами под лучами зимнего солнца и радовать своей красотой детей. И вот однажды ночью, когда звёзды ярко сияли на небесах, по небу в своих волшебных санях летел Дед Мороз, чтобы раздать подарки детям. Пролетая над облаком, он увидел одинокую и грустную маленькую снежинку. Дед Мороз приземлился рядом с ней, и снежинка рассказала Деду Морозу почему она такая грустная и о чем мечтает.

Дед Мороз улыбнулся и сказал: "Маленькая снежинка, ты будешь самой особенной!". Он прикоснулся к снежинке своим волшебным посохом, и она начала сверкать разноцветными огоньками.

"Теперь у тебя есть волшебная способность превращаться в разные формы, лети на землю и радуй детей!" – весело сказал Дед Мороз. Маленькая снежинка была в восторге! Теперь она могла превращаться в красивые снежные замки, забавных снеговиков и даже в весёлых снежных зверюшек, чтобы радовать детишек и взрослых своим удивительным волшебством. Прилетев на землю, она увидела, что в городском парке, возле украшенной новогодней Ёлки, дети готовились к снежным баталиям. И маленькая снежинка решила устроить настоящий снежный праздник. Она превратилась в великолепный ледяной город, где дети могли весело играть в снежки и кататься на санках со снежных горок. Скоро весь город услышал о том, какие чудеса происходят в парке. Дети и взрослые приходили в парк, чтобы наблюдать за волшебством, появлением снеговиков, Дедов Морозов, Снегурочек, разных животных и птиц из снега и льда. И великолепных снежных замков с башнями, катками и снежными горками. И присоединиться к общему веселью и играм. А в Новогоднюю ночь снежные замки, снеговики и животные из снега стали светиться и переливаться разноцветными огнями, словно волшебные фонари. Дети и взрослые с восхищением смотрели на сверкающие фигуры. Веселье и волшебство заполнили весь парк, и горожане, присоединившись к праздничному веселью, танцевали вокруг светящихся скульптур и веселились до самого утра.

Маленькая снежинка чувствовала, что её мечта сбылась. Она стала символом радости и волшебства, принося с собой смех и счастье каждому ребенку. Вместе со своими новыми друзьями она продолжала придумывать весёлые игры и создавать великолепные снежные шедевры.



## МЫ СНЕЖИНКИ

Мы снежинки, мы пушинки,
Покружиться мы не прочь.
Мы снежинки-балеринки,
Мы танцуем день и ночь.
Встанем вместе мы в кружок —
Получается снежок.
Мы деревья побелили,
Крыши пухом замели.
Землю бархатом укрыли
И от стужи сберегли.

# QIŞIN KEŞİKÇİLƏRİ VƏ *Aylinin sehrli gecələri*

Bir zamanlar sakit bir kənddə balaca Aylin yaşayırdı. Qış gələndə kənd ağappaq qar yorğanına bürünər, evlərin bacalarından isti tüstü qalxardı. Aylin axşamlar sobanın yanında oturub nənəsinin sehrli nağıllarını dinləməyi çox sevərdi.

**Bir axşam nənəsi ona pıçıltı ilə dedi:**

– Aylin, bu gecə sənə qışın sirrini göstərəcəyəm. Qış gecələri boş olmur, onlar sehrlə doludur.

**Aylin maraqla soruşdu:**

– O sehri kim gətirir, nənə?

**Nənəsi gülümsəyərək cavab verdi:**

– Qışın öz keşikçiləri var! Qar Dənəsi Əkizləri Lilo və Lala, Külək Cini Fırt və Meşə Ayısı Qumral hər qışı qoruyur.

## SEHRLİ GÖRÜŞ

Aylin pəncərəyə yaxınlaşıb qulaq asdı. Birdən qar dənələri fırlanıb parıldamağa başladı və iki balaca fiqur ortaya çıxdı! Onlar Lilo və Lala idi – qar kimi yumşaq, ulduz kimi işıltılı iki kiçik dost.

– Aylin! – deyə Lala ucadan dedi. – Biz qışın sehrini sənə göstərmək üçün gəldik!

O anda şuluq bir külək içəriyə doldu. Bu Külək Cini Fırt idi.

– Mən də gəldim! – Fırt qəhqəhə çəkdi. – Mən olmasam qışın musiqisi tamamlanmaz!

Aylin gülməkdən özünü saxlaya bilmədi.

## QARLI MEŞƏDƏ MACƏRA

Qar dənələri Aylinin əlindən tutub onu sehrli qarlı meşəyə apardılar. Orada böyük, mehriban bir ayı – Meşə Ayısı Qumral onları qarşıladı.

– Xoş gəlmisən, Aylin!

Aylin meşədə gəzərkən ağacların yavaşca işıldadığını, qarın hər düşəndə kiçik zil səsi çıxardığını gördü. Sanki bütün meşə mahnı oxuyurdu.



**Lilo pıçıltı ilə dedi:**

– Qışın sirri təkcə soyuqda deyil. Qış – birlik, sevgi və möcüzələr vaxtıdır.

**Lala əlavə etdi:**

– Hər qar dənəsi bir arzu daşıyır. Hər uşaq onu dinləsə, arzusuna bir addım daha yaxınlaşar.

## EVƏ DÖNÜŞ

Səhər açılanda Aylin öz yatağında oyandı. Pəncərə arxasında qar dənələri sakitcə düşürdü. O gülümsədi, çünki qışın sehrli dostlarını artıq tanıyırdı.

O gündən sonra hər qış axşamı Aylin pəncərəyə yaxınlaşıb Lilo, Lala, Fırt və Qumralın pıçıltılarını dinləyirdi...





## ADVENT-KALENDAR NƏDİR?

*Advent-kalendar Yeni ili gözləməyi daha maraqlı edən sehrli bir təqvimdir. Hər gün açılan kiçik pəncərəcikdə:*

- *balaca sürpriz,*
- *əyləncəli tapşırıq,*
- *ya da xoş bir arzu gizlənir.*

*Bu kalendar uşaqlara səbirli olmağı, sevinməyi, yaratmağı öyrədir və hər günü balaca bir nağıla çevirir .*

*Aylinin qış macərası da 31 gün davam edir — hər gün bir az sehr, sevinc və Yeni ilə bir addım daha yaxınlaşmaq deməkdir.*

*Çünki Yeni ili gözləmək də bir nağıldır!*

# 31 Günlük Advent Kalendarı

**1-Cİ GÜN**
Nağıl: Aylin qışın sehrli keşikçilərini ilk dəfə nənəsindən eşitdi.
Tapşırıq: Qış haqqında sevdiyin bir söz de.

**2-Cİ GÜN**
Nağıl: Qar Dənəsi Əkizləri Lilo və Lala pəncərədə göründü.
Tapşırıq: Kağızdan qar dənəsi düzəlt.

**3-CÜ GÜN**
Nağıl: Lilo dedi ki, hər qar dənəsi bir arzu daşıyır.
Tapşırıq: Bir arzu tut.

**4-CÜ GÜN**
Nağıl: Külək Cini Fırt qəhqəhə çəkərək içəri doldu.
Tapşırıq: Pıçıltı ilə bir qış mahnısı oxu.

**5-Cİ GÜN**
Nağıl: Fırt qışın musiqisini küləklə çalırdı.
Tapşırıq: Əllərinlə külək səsi çıxart.

**6-CI GÜN**
Nağıl: Aylin sehrli şəkildə qarlı meşəyə düşdü.
Tapşırıq: Qarlı meşə şəkli çək.

**7-Cİ GÜN**
Nağıl: Meşə Ayısı Qumral Aylini mehribanlıqla qarşıladı.
Tapşırıq: Valideynlərinə xoş sözlər de.

**8-Cİ GÜN**
Nağıl: Qumral dedi: "Qışın ürəyi sevgidir".
Tapşırıq: Bacı-qardaşını qucaqla.

**9-CU GÜN**
Nağıl: Meşədə ağaclar işıldayırdı.
Tapşırıq: Günəşin şəklini çək.

**10-CU GÜN**
Nağıl: Qar hər düşəndə kiçik zil kimi səslənirdi.
Tapşırıq: Əşyalara toxunaraq musiqi yarat.

**11-Cİ GÜN**
Nağıl: Lala Aylinə qulaq asmağı öyrətdi.
Tapşırıq: Dinləməyi bacar.

**12-Cİ GÜN**
Nağıl: Qar pıçıltı ilə nağıl danışdı.
Tapşırıq: Qışa aid bir hekayə yaz.

**13-CÜ GÜN**
Nağıl: Aylin qışın təkcə soyuq olmadığını anladı.
Tapşırıq: Qışa aid şeir de.

**14-CÜ GÜN**
Nağıl: Lilo gülümsəyərək ulduzların arasında uçdu.
Tapşırıq: Ağ qanadlı mələk çək.

**15-Cİ GÜN**
Nağıl: Qış gecəsi daha da işıqlandı.
Tapşırıq: Şam şəkli çək.

**16-CI GÜN**
Nağıl: Fırt qar dənələrini rəqs etdirdi.
Tapşırıq: Rəqs et.

**17-Cİ GÜN**
Nağıl: Meşə sükuta qərq oldu.
Tapşırıq: Ətraf səsləri dinlə.

**18-Cİ GÜN**
Nağıl: Qumral dostluğun gücündən danışdı.
Tapşırıq: Dostluq haqqında hekayə yaz.

**19-CU GÜN**
Nağıl: Qar daha parlaq yağmağa başladı.
Tapşırıq: Dostlarınla qar adam düzəlt.

**20-Cİ GÜN**
Nağıl: Aylin qış möcüzələrinə inanırdı.
Tapşırıq: Bir möcüzə düşün.

**21-Cİ GÜN**
Nağıl: Lilo və Lala ulduzlara toxundu.
Tapşırıq: Ulduzları seyr et.

**22-Cİ GÜN**
Nağıl: Fırt dedi ki, Yeni il çox yaxındır.
Tapşırıq: Yeni il üçün bir arzu yaz.

**23-CÜ GÜN**
Nağıl: Meşə bayrama hazırlaşırdı.
Tapşırıq: Evin bəzədilməsinə kömək et.

**24-CÜ GÜN**
Nağıl: Qumral bayramın birlik olduğunu xatırlatdı.
Tapşırıq: Ailənlə şən vaxt keçir.

**25-Cİ GÜN**
Nağıl: Qar dənələri mahnı oxuyurdu.
Tapşırıq: Sevdiyin mahnını zümzümə et.

**26-CI GÜN**
Nağıl: Ailənə təşəkkür et.
Tapşırıq: Təşəkkür et.

**27-Cİ GÜN**
Nağıl: Sehrli dostlar gülümsədilər.
Tapşırıq: Bir lətifə danış.

**28-Cİ GÜN**
Nağıl: Qış gecəsi nağıl kimi idi.
Tapşırıq: Nağıl dinlə.

**29-CU GÜN**
Nağıl: Qar sakitcə yağırdı.
Tapşırıq: Qar dənəciklərini xəyal et.

**30-CU GÜN**
Nağıl: Aylin ili xatırladı.
Tapşırıq: Bu ilin ən gözəl anını paylaş.

**31-Cİ GÜN**
Nağıl: Yeni il gəldi və sehr davam etdi.
Tapşırıq: Yeni ili sevinclə qarşıla!









**Bilirsinizmi, çox tezliklə nağılların ağsaqqalı, qışın sehrli qonağı Şaxta baba kitabxanamıza təşrif buyuracaq! Bu möcüzəli görüşü isə kitabları çox sevən, mehriban dostumuz İncəhörüm özü təşkil edib və Şaxta babanı xüsusi dəvətlə çağırıb.**

**Əgər siz də ürəyinizdən keçən arzuları, şirin sözləri Şaxta babaya yazmaq istəyirsinizsə, qələmlərinizi hazırlayın! Məktublarınızın ünvanında mütləq bunu qeyd edin: F. Köçərli adına Respublika Uşaq Kitabxanası.**

**Unutmayın, həm Şaxta baba, həm də İncəhörüm sizin rəngarəng, sevgi dolu məktublarınızı səbirsizliklə gözləyir. Gəlin sözlərimizi nağıl kimi yazıb, arzularımızı məktub qanadında uçuraq!**



# YENİ İL ÜÇÜN RƏNGLƏMƏ SƏHİFƏSİ

Əgər siz rəsm çəkməyi və rəngləməyi sevirsinizsə, bu səhifə sizin üçündür. Rəngli karandaşlarınız və markerlərinizlə qış nağılı canlanacaq.













Boyama üçün mükəmməl olan sevimli qar adamı illüstrasiyamızla yaradıcılığınızı ortaya qoymağa hazır olun!







## Səssiz dost

**Salam, balaca dostlarım! Mən sizin köhnə dostunuz – İncəhörümə. Bu gün sizi kitabların səssiz, amma möcüzəli dünyasına aparmaq istəyirəm. Elə dünyaya ki, orada kitablar təkcə oxunmur, həm də gözlənir, qorunur  və s.**

Məşhur yazıçılar niyə yalnız XXII əsrdə oxuna biləcək romanlar yazırlar?

Bilirsinizmi, bəzi yazıçılar kitablarını bizim üçün yox, gələcək nəsillər üçün yazırlar? Norveçdə 2014-cü ildə maraqlı bir layihə başlayıb – “Gələcəyin Kitabxanası”. Hər il bir məşhur yazıçı roman yazır, amma bu kitablar yalnız 2114-cü ildə oxunacaq! Həmin kitablar üçün min ədəd şam ağacı əkilib, əlyazmalar isə sakitcə kitabxanada yatıb gələcəyi gözləyir. Elə bil kitablar zamanla gizlənqaç oynayır!

Siz də təəccübləndiniz, elə deyilmi?..



***İndi isə sizi çox qəribə bir kitabxanaya aparım. Portuqaliyada, Koimbra Universitetinin Joanina Kitabxanasında gecələr... yarasalar uçur!*** *Qorxmayın, onlar kitabların dostudur. Yarasalar kitablara zərər verən həşəratları yeyir və beləliklə, qədim kitabları qoruyur. Lakin bu cür mühafizəçiləri saxlamaq o qədər də asan deyil. Hər axşam kitabxananın əməkdaşları qədim mebelləri və kitabları xüsusi dəri parçadan hazırlanmış örtüklərlə  örtür.  Səhər isə onlar  hər yeri təmizləyir.*




Bəs tamamilə boş səhifələrdən ibarət kitab ola bilərmi? Ola bilər! 1974-cü ildə Amerikada **“Heç nə kitabı” adlı bir kitab çap olunub.** İçində bir dənə də söz yoxdur – yalnız boş səhifələr. Amma uşaqlar və böyüklər onu sevə-sevə alıblar. Çünki bəzən ən gözəl hekayəni insan özü yazır.

Hiss etdim ki, bir azca həyəcanlandınız.




Elə isə bu saat sizi sevindirərəm. Gəlin Milad bayramına gedək. İslandiyada ən gözəl hədiyyə kitabdır. İnsanlar Milad gecəsi şokolad yeyə-yeyə kitab oxuyurlar. Elə buna görə də İslandiya dünyanın ən çox oxuyan ölkələrindən biridir. **Jólabókaflóð və ya “Milad kitab seli”** — ailənin hər bir üzvünün digərinə kitab hədiyyə etməli olduğu cazibədar bir ənənədir.



Çox-çox əvvəl, orta əsrlərdə kitablar o qədər dəyərli idi ki, kitabxanalarda zəncirlə rəflərə bağlanırdı. Oxumaq olardı, amma aparmaq olmazdı. ***Kitablar sanki deyirdi: “Mən buradayam, qaçmıram!”***




Bir də inanılmaz bir təsadüf var. **Məşhur aktyor Entoni Hopkins bir filmdə rol almaq üçün roman axtarırmış.** Kitabı tapa bilməyəndə təsadüfən metroda bir skamyada romanın əlyazmasını tapıb oxuyur və rolu qazanır! Görürsünüzmü, kitablar bəzən öz oxucusunu özü tapır. Bəli, bu da  çox qəribədir.



Dünyanın ən kiçik kitabxanasını görmək istəyərdiniz? O, İngiltərədə bir telefon köşkündə yerləşir. Gecə-gündüz açıqdır və hər kəs kitab götürə, oxuya bilər.



Uzaq Argentinada “Eterna Cadencia” adlı bir nəşriyyat çox maraqlı, bir az da sehrli bir kitab yaradıb. Bu kitabın adı “El libro que no puede esperar” dir. Azərbaycan dilində onu “Gözləyə bilməyən kitab” adlandırmaq olar. Amma bu kitab adi kitablar kimi səbirli deyil – o, oxucunu gözləməyi sevmir.



Kitab xüsusi plastik qablaşdırmada satılır. Elə bil içində balaca bir sirr gizlənib. Siz qablaşdırmanı açan kimi sehr başlayır. Günəş işığı və hava kitabın səhifələrinə toxunur və oradakı hərflər asta-asta solmağa başlayır. Bu kitab xüsusi mürəkkəblə çap olunub. Həmin mürəkkəb işıq və hava ilə dostlaşa bilmir və buna görə də yox olur.

Oxucu kitabı ilk dəfə açdıqdan təxminən iki ay sonra yazılar görünməz hala gəlir. Günlər keçir, sözlər azalır, cümlələr itir… Sonda isə səhifələr ağappaq qalır. Dörd ay tamam olanda kitabda artıq oxunacaq heç nə olmur, yalnız xatirələr qalır.

Bu kitab bizə maraqlı bir dərs verir: bəzi hekayələr gözləməyə dözmür. Onlar indi oxunmaq, indi sevilmək istəyir. “Gözləyə bilməyən kitab” uşaqlara deyir ki, vaxtı dəyərləndirin, kitablarla dostluğunuzu gecikdirməyin. Çünki bəzən sözlər də uçub gedə bilər.

***Əziz dostlarım, gördünüzmü, kitablar necə maraqlıdır? Onlar danışmır, amma hər şeyi deyir. Mən – İncəhörüm – sizə arzu edirəm ki, kitablar sizin ən səssiz və ən sadiq dostunuz olsun. Onları sevin, sevin ki, bir gün  bəşəriyyətin ən sevimlisi ola bilin!***

# QIŞ LABİRİNTLƏRİ







Yerdə bir ağ süfrə var,
Pambıq kimi parıldar

Qar





Dam üstə daylaq
oynar, Yerə dəyib
oyular

Dolu



# RƏSMLƏRİ TAMAMLA















## QAR

Qar örtdü bağça-bağları,
Çiçəkli, güllü dağları,
Qışın səfalı çağları
Yetişdi. Qəlbim oldu şən.
Səfalıdır bizim Vətən.
Nə xoş gəlib bu qış, bu qar,
Qışın da başqa zövqü var,
Qar altda yatdı tarlalar.

Dümağ geyindi çöl, düzən,
Səfalıdır bizim Vətən.
Fərəhlidir bu eldə qış,
Baharda gur yağan yağış.
Açıb dümağ örpəyi
A yurdumuz, bəzən-bəzən,
İlin bütün fəsilləri
Səfalıdır bizim Vətən.

*Mirvarid Dilbazi*




# TANGRAM NƏDİR?

**_Tanqram 7 hissədən və ya həndəsi formalardan (5 üçbucaq, 1 kvadrat və 1 paraleloqram) ibarət bir tapmaca növüdür._**


















**ƏZİZ DOSTLAR!**

**Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam! Necə maraqlı və rəngarəng kitabdır!**

## *Və nağıl qapını döydü*

### Şaxta baba üçün xüsusi hədiyyə

*...Mən Şaxta babaya verəcəyim hədiyyəni tapdım.*

*Əmziyimi!*

*Qoy Şaxta baba yorulanda onu əmib yatsın! Tomi anası ilə birlikdə hədiyyə bağlaması hazırladı.*

*– Şaxta baba elə sevinəcək ki! – anası dedi. Onun balaca balası artıq böyüyüb!*

*Həmin gecə kimsə buxarının bacasından içəri girir... Bu Şaxta baba idi. O, gətirdiyi hədiyyələri şam ağacının altına qoyanda qırmızı lentli balaca hədiyyə bağlamasını görür.*

*– Ho, ho, ho!*

*Şaxta baba qeyri-adi hədiyyəsini götürüb sehrli Şimal maralları ilə yola düşür.*

*Tomi səhər yuxudan qalxan kimi tez hədiyyələrini götürüb açır. İçindən yumşaq oyuncaq və məktub çıxır.*

*– Məktub Şaxta babadandır. O yazır ki, indiyədək ona heç vaxt belə xüsusi hədiyyə verən olmayıb!..*

## Bu kitabı gəlib kitabxanamızda oxuya bilərsiniz.

*Tərcüməçi: Arzu Cəfərova*





# QIŞ VƏ RƏNG

*3 nömrəli UGİM-in*
*"Təsviri sənət və dizayn" dərnəyinin şagirdlərinin rəsmləri.*
*Müəllim: Nərmin Abdullayeva*



Əzizə Bəhruzlu, 13 yaş



Tuncay Axundov, 7 yaş



Dəniz Bəhruzlu, 12 yaş



Zəhra Nədiyeva, 12 yaş



İncə Mirzəyeva, 11 yaş



Əbdürrəhman Səlimli, 11 yaş





Əsma Həsənzadə, 11 yaş



Xədicə Ramazan, 11 yaş



Mədinə Bayramlı, 15 yaş



Ülkər Qarayeva, 11 yaş



Sevda Məmmədli, 11 yaş



Aysel Qədirli, 13 yaş



Nuray Məmmədova, 11 yaş

## QIŞIN NƏĞMƏSİ

Saqqalı ağ, saçı ağ,
Əlində zorba çomaq
Gəldi qocalmış baba,
Şaxta baba, qış baba.
Gurladı boğnuq səsi,
Uğuldadı nəğməsi:
"Ay uşaqlar, mən qışam,
Burda mənzil salmışam.
Mən gələndə yağar qar,
Onu sevər uşaqlar.
Qardan adam yaparaq,
Oynarlar qar-topalaq.
Soyuq qış axşamında
İsti ocaq başında
Nağıl deyir nənələr,
Qulaq asır nəvələr".
Çöldə ayaz, boran, qar,
Qışın da bir zövqü var...

Abdulla Şaiq